***Bu gün Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatların – Vətən müharibəsinin başlandığı gündür. Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd edilir.***

# Şuşa fatehlərindən biri – Bəhruz Məmmədzadə



2020-ci il sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının, döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə bütün cəbhə boyu əks-hücum əməliyyatlarına başlayıb. 44 günlük Vətən müharibəsi Azərbaycanın həm döyüş meydanında, həm də siyasi müstəvidə qələbəsi ilə başa çatıb. Bununla da, 30 ilə qədər erməni işğalı altında olmuş Azərbaycanın əzəli və əbədi torpaqları azad olunub, ərazi bütövlüyü bərpa edilib. Hazırda Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri aparılır, bununla paralel olaraq məcburi köçkün soydaşlarımızın öz yurdlarına qayıdışı prosesinə start verilib.

Anım günündə Vətən müharibəsində şücaətlər göstərərək düşməni torpaqlarımızdan qovmuş qazilərlə görüşüb onların döyüş yoluna işıq salmağa çalışdıq. Belə igid oğullarımızdan biri Xüsusi Təyinatlı Qüvvələrimizin tərkibində böyük döyüş yolu keçmiş Bəhruz Qasım oğlu Məmmədzadədir. 1981-ci ildə Masallı rayonunun Sığıncaq kəndində anadan olmuş Bəhruz sonradan həyatını hərb sənətinə bağlayıb. 1999-cu ildən Azərbaycan Ordusunun sıralarında hərbi xidmətdə olub. XTQ-nin tərkibində ciddi döyüş hazırlığı keçib. Hələ Vətən müharibəsi başlayana qədər düşmənə qarşı şanlı döyüş və qələbə yolunu hərbi məşqlər, təlimlər zamanı mənimsəyib. Bəhruz bizimlə söhbətində xatırladı ki, bir gün Ali Baş Komandanın torpaqlarımızı azad etmək üçün hücum əmri verəcəyini intizarla gözləyiblər. Və nəhayət, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqının və Prezidentinin səbr kasası daşıb və Ermənistanın ardı-arası kəsilməyən təxribatlarına cavab vermək üçün əks-hücum əmri verilib.

Bəhruz və döyüş yoldaşları da xüsusi təyinatlı olaraq döyüşlərə qoşulublar. Onların hərbi hissəsi, demək olar ki, bütün döyüş bölgələrində düşmənə qarşı vuruşub. Onlar Füzulidə ermənilərin quraşdırdığı böyük istehkamların, eləcə də digər rayonlarımızdakı möhkəmləndirilmiş mövqelərin azad edilməsində iştirak ediblər. Bəhruz Cəbrayılın, Kəlbəcərin bir sıra kəndlərinin, eləcə də Şuşanın azad edilməsində qəhrəmancasına mübarizə aparıb.

Bəhruz Məmmədzadə bildirdi ki, xüsusi təyinatlı əsgər olaraq onlar həmişə döyüşə hazır olublar, istənilən vəziyyətdə, istənilən növ silahla vuruşmağı bacarıblar. Hətta Şuşanın alınması kimi böyük bir əməliyyatda fədakarlıqla döyüşüblər. Əslində, o zaman ermənilər hesab edirmişlər ki, Azərbaycan Ordusu heç zaman Şuşanı ala bilməyəcək. Çünki bu şəhərin yerləşdiyi təbii-coğrafi mövqe onu alınmaz qalaya çevirib. Amma Bəhruz Məmmədzadə və qəhrəman oğullarımız sıldırım qayalara dırmaşaraq, XTQ komandanı general Hikmət Mirzəyevin rəhbərliyi ilə bu alınmaz qalanı düşmədən ala və onu göz bəbəyi qoruya bilib. Onun dediyinə görə, burada döyüşən gənclərin çoxu Şuşanın heç üzünü də görməyib, yalnız adını eşidib. Çünki Şuşa onların yaşından çox əvvəl işğal olunub. Amma hamı Şuşa uğrunda fədakarlıqla döyüşüb. Bu ağır mübarizədə şəhid olanlar, yaralananlar olub. Bununla belə, hər bir əsgər Şuşa uğrunda ölməyə hazır olub. Bəhruz etiraf etdi ki, əsgərlər hətta bir-biri ilə halallaşıbmışlar ki, hər an şəhid ola bilərlər. Üstəlik, şəhərin alınmasından sonra ermənilər 5-6 dəfə təzədən hücum ediblər. Lakin bu hücumların qarşısı mərdliklə alınıb.

Noyabrın 6-da – Şuşanın tam azad edilməsinə iki gün qalmış Bəhruz ağır yaralanıb, qapalı kəllə-beyin travması alıb. Amma buna əhəmiyyət vermədən mübarizəni davam etdirib. Yalnız Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də Şuşanın azad edilməsi müjdəsini xalqa çatdırandan sonra müalicəyə başlamağa qərar verib. Əvvəlcə Füzulinin Şükürbəyli kəndindəki, sonra Bakıdakı hərbi hospitalda müalicə alıb.



Bəhruz xatırlayır ki, xidmət etdiyi xüsusi təyinatlı qüvvələr ümummilli lider Heydər Əliyevin vaxtında yaradılıb. Prezident İlham Əliyev isə daim onlara qayğı və diqqət göstərib. Mütəmadi olaraq onlarla görüşə gəlib. Bu hissənin əsgərləri isə dövlətin və Prezidentin etimadını doğrultmaq amalı ilə yaşayıblar. Sonrakı döyüşlər də onların öz andlarına sədaqətini təsdiqləyib. Bəhruz deyir ki, Şuşa düşməndən təmizlənəndən sonra Şuşa məscidinin minarəsində ilk işıq yandıran o olub. Bunun üçün ermənilərin atıb getdikləri generatorlar kara gəlib. Sonra bu məsciddən azan səsi ucaldıblar.

44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş Bəhruz Məmmədzadə Azərbaycan Prezidentinin sərəncamları ilə bir sıra rayonların azad edilməsinə görə və "Vətən uğrunda" medalları ilə təltif edilib. O, ehtiyata buraxıldıqdan sonra döyüş yoldaşları ilə birgə "Respublika Xüsusi Təyinatlıların qaziləri, şəhid ailələri və veteranları" İctimai Birliyini təsis edib, hazırda birliyin sədr müavinidir. Bu günlərdə Azərbaycan Mətbuat Şurasının VIII qurultayında isə Bəhruz şuranın İdarə Heyətinin ictimai üzvü seçilib. Buna görə də Mətbuat Şurasının bütün üzvlərinə, jurnalistlərə və xalqımıza minnətdardır. O, eyni zamanda, hazırda Moldovadakı Komrat Dövlət Universitetinin ictimai hüquq fakültəsinin tələbəsidir.

Bəhruz Anım Günündə bütün şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbir dilədi və əlavə etdi:

Torpaq əgər uğrunda ölən varsa, Vətəndir!..

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 27 sentyabr.- S.3.